# Şuşanın ilk sakinləri

**Uzun illərin həsrətindən sonra şuşalılar da öz yurdlarına qovuşurlar. Bu il mayın 10-da Şuşa ilk qayıdış karvanını qarşıladı, doğma sakinlərinə qucaq açdı. İlkin mərhələdə birinci yaşayış kompleksinə 20 ailə olmaqla 88 nəfər köçdü.**



Dünən isə daha 136 şuşalının nisgilinə son qoyuldu. Tarixi yenidən yazılan Şuşanın artıq 224 sakini var. Onlar doğma ocaqlarına dönməyin, bu yerlərdə yenidən qurub yaratmağın sevincini yaşayırlar.

Azərbaycan dövləti Şuşa sakinlərinin də rahat, firavan yaşayışı üçün bütün şəraiti yaradıb. Digər azad edilən torpaqlarda olduğu kimi, Şuşada da genişmiqyaslı quruculuq işləri gedir. Şəhərdə inşa edilən binalar Şuşanın ənənəvi memarlıq üslubunda tikilir. Prezident İlham Əliyev tərəfindən Şuşada 2021-ci ildə təməli qoyulan 23 binadan ibarət yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olmaqla 450 mənzildən ibarətdir.

Şuşada dini və mədəni abidələr bərpa edilir. Molla Pənah Vaqifin məqbərəsi yenidən qurularaq əzəli görkəminə qaytarılıb, Üzeyir bəy Hacıbəylinin heykəli qoyulub, Bülbülün ev-muzeyi, habelə Rəsm Qalereyası və Xalçaçılıq Qalereyası, Yuxarı Gövhər ağa, "Saatlı", "Mamayı", Mehmandarov məscidləri və Mehmandarovun evi bərpa edilib.

Şuşanı görmək bütün vətəndaşlarımızın və xarici qonaqların böyük arzusudur. Müharibədən dərhal sonra başlanılan və qısa müddət ərzində həyata keçirilən irimiqyaslı layihələr nəticəsində bu məqsədə də sürətlə nail olunur. Artıq Şuşada dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyüyü olan "Şuşa" mehmanxanası şəhərin müasir görkəmini əks etdirir.

Şuşada həmçinin 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxananın tikinti işləri davam etdirilir. Xəstəxana binasının tikintisinə ötən ilin yanvarında başlanılıb. Bina 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. İnşası davam edən obyektlərdən biri də üçmərtəbəli və 960 şagird yerlik məktəbdir. Habelə Xan Şuşinski, Əbdürrəhim bəy Haqverdiyev, İsmayıl bəy Şəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Cabbar bəy Vəlibəyov, Yusif Vəzir Çəmənzəminli, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu və Soltan bəy Vəlibəyov kimi görkəmli şəxsiyyətlərin təhsil aldıqları Şuşa Realnı Məktəbi bərpa olunur.

Sevindirici haldır ki, qısa müddətdə artıq 1805 ailə - 7053 nəfər keçmiş məcburi köçkün dədə-baba torpağına qovuşub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 493 ailə (1838 nəfər) Laçın şəhərinə, 822 ailə (3132 nəfər) Füzuli şəhərinə, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndinə, 20 ailə (75 nəfər) Laçın rayonunun Sus kəndinə, 58 ailə (224 nəfər) Şuşa şəhərinə qayıdıb.

Böyük qayıdış davam edir. Tezliklə Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı da sakinlərini qarşılayacaq. 2025-ci ildə isə Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə keçmiş məcburi köçkünlərin qayıtması nəzərdə tutulur. Daha sonra Laçın rayonunun Sus kəndin, Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına başlanılacaq.

Düşməndən azad etdiyimiz ərazilərimizin tam məskunlaşmasına, keçmiş məcburi köçkünlərin yurd həsrətinin bitməsinə çox az qalıb. Artıq 2026-cı il, Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin, 34 min 500 ailənin dədə-baba torpaqlarında daimi məskunlaşması təmin ediləcək. Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir yurd nisgili ilə, əsarət altında qalmış torpaqlarına qovuşmaq arzusu ilə yaşayan yüz minlərlə vətəndaşımız əzəli torpaqlarına qovuşacaqdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 15 may, № 100.- S.8.